# "İfaçılıq sənətinin mahir ustası olmağa çalışacağam"




Azər Səlimov 1993-cü ildə Bakıda anadan olub. 2011-ci ildə paytaxtdakı 141 nömrəli tam orta məktəbi bitirib. Növbəti il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) xanəndəlik fakültəsinə daxil olub. Universitetdə ilk müəllimi əməkdar artist Zakir Əliyev olub. Hazırda IV kurs tələbəsi olan Azər Səlimov xalq artisti Gülyanaq Məmmədovadan dərs alır. O, 2015-ci ildə Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən "Qolosa Zolotoy stepi-2015" V beynəlxalq musiqi festival-müsabiqəsində ölkəmizi təmsil edib. O, birinci turda "Qara tellər", "Bana-bana gəl", "Ahu kimi", ikinci turda isə "Heyratı" zərb muğamını ifa edərək III yerə layiq görülüb. Həmin ilin noyabrında Çexiyanın Praqa şəhərində keçirilən "Praqa payızı" musiqi festivalına qatılıb və II yerin qalibi olub. 2016-cı ili isə Azər Səlimov üçün daha uğurlu hesab etmək olar. Çünki o, İspaniyada keçirilən "Gran Fiesta" beynəlxalq müsabiqəsindən I yerin qalibi kimi vətənə qayıdıb.

Azərlə görüşüb seçdiyi milli muğam ifaçılığı sənətinə olan münasibətini öyrəndik. O dedi:

- Xanəndəlik sənəti musiqi mədəniyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edir. İstedadlı gənclərin üzə çıxarılmasında, onların gələcək inkişaflarının təmin olunmasında Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Nə yaxşı ki, Mehriban xanım Əliyevanın sayəsində misilsiz sərvətimiz olan muğam özümüzə qaytarıldı və inkişaf etdirilir. Təsadüfi deyil ki, Cabbar Qaryağdıoğlunu Azərbaycan xalq musiqisinin canlı tarixi, ensiklopediyası adlandırırlar. Onun qoyub getdiyi zəngin xəzinə az qala unudulmuşdu. Bu gün isə muğam parlayır, həvəslə oxunur və məhəbbətlə dinlənilir. Xanəndəlik sənətində məktəb yaradan görkəmli ustadlara oxşamaq ən ümdə arzumdur. Buna görə də öz üzərimdə əzmlə çalışıram.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*